# Pandemiya dövründə onlayn təhsilin üstünlükləri

## Coğrafiya fənninin virtual sinifdə tədrisi

**Dünyanı ağuşuna alan koranavirus (COVID-19) pandemiyası ilə əlaqədar onlayn təhsil günümüzün ən önəmli bir hissəsinə çevrilmişdir. Onlayn təhsil yaşayış yerini tərk etmədən təhsil almaq və təhsil vermək imkanı yaradır. Təhsilin bu formada tədrisi informasiya-kommunikasiya texnologiyalarına əsaslanır, müəllim isə onların vasitəsi ilə şagird və tələbələrə elmin sirlərini aşılayır.**



Respublikamızda xüsusi karantin rejimi dövründə şagird və tələbələrin təhsildən geri qalmamaları üçün təlim-tədris prosesi məsafədən təşkil olunmağa başlanıldı. İlk öncə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən "Virtual məktəb" layihəsinə start verildi, "Mədəniyyət" kanalında "Dərs vaxtı" adlı teledərslərin yayımlanmasına başlanıldı. Layihə Təhsil Nazirliyi və "Microsoft" şirkəti arasında əməkdaşlıq prinsipləri çərçivəsində həyata keçirildi. Layihənin məqsədi isə teledərslərin interaktivliyini təmin etmək, məsafədən tədris imkanlarını genişləndirmək, onlayn təhsil prosesində keyfiyyəti artırmaq idi. Növbəti mərhələdə universitetlərdə, kolleclərdə, peşə məktəblərində, o cümlədən orta ümumtəhsil məktəblərində məsafədən təhsilin fasiləsizliyi təmin olundu.

Məsafədən tədrisin üstünlüklərindən yararlanan təhsil ocaqlarından biri də Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecidir. Kollecdə 2020-ci il mart ayından etibarən təlim və tədris prosesi məsafədən həyata keçirilir. Pandemiya dövründə "Evdə qalaq, təhsildən qalmayaq" şüarını əsas tutaraq, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Cəfər Cəfərov və Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru dosent İsrayıl İsgəndərovun dəstəyi ilə kollecimizdə təqdirəlayiq addımlar atıldı. Bütün dərslər MS Teams platformasının imkanları üzərindən həyata keçirilməyə başlanıldı. Bir sıra tədbirlər, diskussiyalar, davamlı inkişaf sahəsində təlimlər onlayn formada həyata keçirildi. Buna baxmayaraq, onlayn təhsil vaxt və məkan həddini aşaraq öyrənmə və tədrisin həyata keçirildiyi bir təhsil sisteminə çevrildi. Hazırda onlayn təhsil müasir təhsil sistemində böyük bir dəyişikliklərə səbəb oldu, geniş imkanlar yarandı. Bunlara, eyni vaxtda virtual sinif şəraitində tədris fəaliyyətinin aparıldığı ayrı-ayrı vaxtlarda tədris imkanı yaradan sinxron və asinxron modellər, video və audio sənədlər kimi müxtəlif tədris materialları daxil edildi.

Ümumiləşdirilmiş şəkildə deyə bilərik ki, onlayn təhsilin əsas xüsusiyyətlərinə aşağıdakılar aiddir:

- *təhsilin tələbə yönümlü olması;*
- *istənilən vaxt və istənilən sürətlə təhsil almaq imkanı yaratması;*
- *zaman və məkanın məhdudiyyətsizliyi;*
- *fiziki qüsurlu şagird və tələbələrə təhsil almaq imkanı verməsi;*
- *interaktiv vasitələrlə tədris imkanı yaratması;*
- *dərs materiallarına məhdudiyyətsiz girişi təmin etməsi;*
- *nəqliyyat, qidalanma və digər xərclərin aradan qaldırılması.*

Elmi tədqiqatların daha da genişləndiyi və dərinləşdiyi müasir dövrdə müxtəlif elmlər arasında inteqrasiya getdikcə güclənir. Coğrafiya elmi bu elmlərlə birlikdə bəşəriyyəti düşündürən qlobal problemlərin həllində mühüm rola malikdir. Bu baxımdan, onlayn tədris zamanı coğrafiyanın tədrisində şagird və tələbələrin bilik və bacarıqlarının müəyyən edilməsi, təlimlərin keçirilməsi, xəritə məlumatı, coğrafi məkan, dünyanın forması və hərəkətləri, iqlim məlumatları və s. təsvirlərdən istifadə olunur. Onlayn təlimlərimizdə coğrafiya fənni yaddaş texnikası ilə əlaqəli səlis hekayələrə uyğun rəngli və gözoxşayan vizual şəkillərlə zənginləşdirilir. Bu yanaşma şagird və tələbələrin imtahana hazırlıqlarını təmin edir. Coğrafiyada istifadə etdiyimiz yaddaş texnikaları sayəsində mövzuların sayı artıq problem deyil və dərs videolarımız getdikcə əyləncə elementinə çevrilir. Coğrafiya fənnindəki riyazi hesablamalar da görüntülənir və tələbələrin asanlıqla başa düşə biləcəyi hekayələrə çevrilir. Bununla da mövzuların öyrənmə, xatırlama və məlumatları asanlıqla qavrama bacarığı səviyyəsində fənlərimiz tədris olunur.

**Vüsalə SADIQOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin coğrafiya müəllimi*